**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin 2023-cü il üzrə**

**audit edilmiş maliyyə hesabatlarının qısa icmalı**

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (Agentlik) fəaliyyəti əsasən qeyri-kommersiya xarakterli olub ölkədə rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkili, yerli innovasiya mühitinin formalaşdırılması, ekosistemin gücləndirilməsinə xidmət etməkdir.

2023-cü ildə Agentliyə Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi üçün 22,4 milyon manat, “Azərbaycan Respublikasının Rəqəmsal Məcəlləsi”nin hazırlanması layihəsi üçün 1,2 milyon manat vəsait ayrılmışdır.

Agentliyin kommersiya fəaliyyətindən gəliri 2023-cü ildə 17% artaraq 11,7 milyon manat olmuşdur. Agentliyin fəaliyyət istiqaməti üzrə əsas xərcləri işçi heyəti ilə bağlı xərclərdir ki, bu da 2023-cü ildə ümumilikdə 19,8 milyon manat təşkil etmişdir.

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

# MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi" publik hüquqi şəxsin Səhmdarına və Rəhbərliyinə:

***Şərti Rəy***

Biz "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi" publik hüquqi şəxsin (bundan sonra "Agentlik" adlandırılacaq) 31 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında ilkin hesabatdan, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında ilkin hesabatdan, kapitalda dəyişikliklər haqqında ilkin hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında ilkin hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, ilkin maliyyə hesabatlarına edilən qeydlərdən ibarət ilkin maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, "Şərti rəy üçün əsaslar" paraqrafında təsvir edilən məsələnin təsirləri istisna olmaqla, əlavə edilmiş ilkin maliyyə hesabatları Agentliyin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə maliyyə göstəricilərini və pul vəsaitlərinin hərəkətini, bu ilkin maliyyə hesabatlarının 31 dekabr 2024-cü il tarixinə Agentlik MHBS əsasında ilkin maliyyə hesabatlarının tam toplusunu hazırlayarkən 1 saylı MHBS əsasında MHBS-nin necə tətbiq olunduğu, o cümlədən qüvvəyə minməsi gözlənilən standartlar və şərhlər haqqında rəhbərliyin fərziyyələri, qəbul olunması gözlənilən siyasətləri özündə əks etdirən 3 saylı Qeydində təqdim olunan "Təqdimatın əsasları" bəndinə uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından düzgün şəkildə əks etdirir.

***Şərti Rəy üçün Əsaslar***

Agentlik 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə əmlak, tikili və avadanlıqların dəyərsizləşmə testini həyata keçirə bilməmişdir. Nəticə etibarilə, biz 31 dekabr 2023-cü il və 1 yanvar 2023-cü il tarixlərinə təqdim edilən Agentliyin maliyyə vəziyyəti haqqında ilkin hesabat və həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında ilkin hesabat, kapitalda dəyişikliklər haqqında ilkin hesabat və pul vəsaitlərinin hərəkəti haqqında ilkin hesabat ilə bağlı hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilməmişik.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "İlkin Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Agentlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***İzahedici Paraqraf – Təqdimatın əsasları***

Biz, MHBS-yə uyğun tərtib edilmiş ilkin maliyyə hesabatlarına əlavə edilmiş 3 saylı Qeydə diqqət yetiririk. Bu Qeyd MHBS-yə uyğun tərtib edilmiş ilkin maliyyə hesabatlarına MHBS-yə uyğun tərtib edilmiş maliyyə hesabatlarının tam toplusunu təşkil etməzdən əvvəl düzəlişlərin edilməsi tələb oluna biləcəyi ehtimalını izah edir. Bundan əlavə, biz, MHBS-yə uyğun olaraq Agentliyin maliyyə vəziyyətinin, əməliyyatların nəticələrinin və pul vəsaitlərinin hərəkətinin ədalətli şəkildə təqdimatını MHBS üzrə müqayisəli maliyyə məlumatları və izahedici qeydlər ilə yalnız maliyyə hesabatlarının tam toplusunun təmin edə biləcəyinə diqqət yetiririk. Bu məsələ ilə bağlı rəyimiz şərti deyildir.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

*İzahedici Paraqraf – Əlaqədar tərəf əməliyyatları və qalıqlar*

Əlavə edilmiş ilkin maliyyə hesabatlarının 7 saylı Qeydinə diqqət yetiririk. Agentlik əlaqəli tərəflərlə əhəmiyyətli qalıq və əməliyyatlara malikdir. Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin iştirak edə bilmədiyi əməliyyatlarda iştirak edə bilər və əlaqəli tərəflər arasındakı əməliyyatlar əlaqəli olmayan tərəflər arasındakı əməliyyatlarda olan eyni müddət, şərtlər və məbləğlərin təsirinə məruz qalmır. Bu məsələ ilə bağlı rəyimiz şərti deyildir.

***İlkin Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik bu ilkin maliyyə hesabatlarının 31 dekabr 2024-cü il tarixinə MHBS əsasında ilkin maliyyə hesabatlarının tam toplusunu hazırlayarkən 1 saylı MHBS əsasında MHBS-nin necə tətbiq olunduğu, o cümlədən qüvvəyə minməsi gözlənilən standartlar və şərhlər haqqında rəhbərliyin fərziyyələri, qəbul olunması gözlənilən siyasətləri özündə əks etdirən 3 saylı Qeydində təqdim olunan "Təqdimatın əsasları" bəndinə uyğun olaraq hazırlanması və təqdim olunması üzrə və ilkin maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya səhvlərdən qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

İlkin maliyyə hesabatları tərtib edildikdə, rəhbərlik Agentliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Agentliyin maliyyə hesabatları prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

***İlkin Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz ilkin maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz, həmçinin:

- İlkin maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki saxtakarlıq, sözləşmə, qərərzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Agentliyin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Agentliyin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Agentliyin fasiləsizlik prinsipi əsasında fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, ilkin maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin ilkin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

# "İNNOVASİYA VƏ RƏQƏMSAL İNKİŞAF AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA İLKİN HESABAT
## 31 DEKABR 2023-CÜ İL TARİXİNƏ
*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2023-cü il | 1 yanvar 2023-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7, 9 | 40,593,545 | 32,091,664 |
| Debitor borcları | 10 | 119,746 | 158,840 |
| Verilmiş qısamüddətli borclar | 11 | 66,667 | 533,333 |
| Avans ödənişləri | 12 | 662,888 | 8,729 |
| Digər cari aktivlər | 13 | 233,627 | 366,657 |
| **Cəmi cari aktivlər** | | **41,676,473** | **33,159,223** |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 14 | 14,712,829 | 15,813,837 |
| Qeyri-maddi aktivlər | 15 | 2,813,166 | 3,132,501 |
| MZVƏD-də investisiyalar | 16 | 1,377,240 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **18,903,235** | **18,946,338** |
| **CƏMİ AKTİVLƏR** | | **60,579,708** | **52,105,561** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| **Cari öhdəliklər:** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 7, 17 | 1,780,067 | 3,375,673 |
| Təxirə salınmış gəlir | 18 | 38,872,806 | 28,153,292 |
| Alınmış avanslar | 7, 19 | 1,043,075 | 282,290 |
| Digər cari öhdəliklər | 20 | 590,007 | 644,250 |
| **Cəmi cari öhdəliklər** | | **42,285,955** | **32,455,505** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **42,285,955** | **32,455,505** |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | | 6,778,392 | 6,778,392 |
| Digər ehtiyatlar | 21 | 35,824,779 | 29,529,004 |
| Yığılmış zərərlər | | (24,309,418) | (16,657,340) |
| **Cəmi kapital** | | **18,293,753** | **19,650,056** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **60,579,708** | **52,105,561** |

**Rəhbərlik adından:**

**İnarə Vəliyeva**
**İdarə Heyətinin sədri**

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Vüsal İbrahimov**
**Baş mühasib**

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

10-43-cü səhifələrdəki qeydlər hazırkı ilkin maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "İNNOVASİYA VƏ RƏQƏMSAL İNKİŞAF AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

## MƏCMU GƏLİR HAQQINDA İLKİN HESABAT
## 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Gəlir | 7, 22 | 36,815,926 |
| Əməliyyat xərcləri | 7, 23 | (35,429,903) |
| **Əməliyyat gəliri** | | **1,386,023** |
| Ümumi və inzibati xərclər | 7, 24 | (8,831,200) |
| Faiz gəliri | 11 | 2,883 |
| Debitor borcları üzrə ehtimal olunan kredit zərəri | 10 | (75,491) |
| Əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlərin silinməsi üzrə zərər | | (11,533) |
| MZVƏD-də investisiyaların ədalətli dəyərində xalis dəyişiklik | | (122,760) |
| **Mənfəət vergisindən əvvəl zərər** | | **(7,652,078)** |
| Mənfəət vergisi gəliri | 25 | - |
| **İl üzrə xalis zərər** | | **(7,652,078)** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU ZƏRƏR** | | **(7,652,078)** |

**Rəhbərlik adından:**

**İnarə Vəliyeva**
**İdarə Heyətinin sədri**

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Vüsal İbrahimov**
**Baş mühasib**

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

10-43-cü səhifələrdəki qeydlər hazırkı ilkin maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "İNNOVASİYA VƏ RƏQƏMSAL İNKİŞAF AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA İLKİN HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Nizamnamə kapitalı | Digər ehtiyatlar | Yığılmış zərərlər | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | **6,778,392** | **29,529,004** | **(16,657,340)** | **19,650,056** |
| Səhmdarlar tərəfindən yatırımlar | - | 6,295,775 | - | 6,295,775 |
| İl üzrə cəmi məcmu zərər | - | - | (7,652,078) | (7,652,078) |
| **31 dekabr 2023-cü il** | **6,778,392** | **35,824,779** | **(24,309,418)** | **18,293,753** |

**Rəhbərlik adından:**

**İnarə Vəliyeva**
**İdarə Heyətinin sədri**

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Vüsal İbrahimov**
**Baş mühasib**

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

10-43-cü səhifələrdəki qeydlər hazırkı ilkin maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "İNNOVASİYA VƏ RƏQƏMSAL İNKİŞAF AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA İLKİN HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | |
| Mənfəət vergisindən əvvəl zərər | | (7,652,078) |
| Xalis pul vəsaitləri ilə mənfəət vergisindən əvvəl zərərin üzləşdirilməsi üzrə düzəlişlər: | | |
| Köhnəlmə və amortizasiya xərcləri | 14, 15 | 1,981,950 |
| Debitor borcları üzrə ehtimal olunan kredit zərəri | 10 | 75,491 |
| Əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlərin silinməsi üzrə zərər | | 11,533 |
| Ümumi nəzarət altında olan digər müəssisələrdən maliyyələşdirilən xərclər | | 5,813,947 |
| MZVƏD-də olan investisiyaların ədalətli dəyərində xalis dəyişiklik | | 122,760 |
| Yığılmış faiz üzrə dəyişiklik | 11 | (2,883) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri:** | | **350,720** |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər: | | |
| Debitor borclarında dəyişiklik | | (36,397) |
| Avans ödənişlərində dəyişiklik | | (654,159) |
| Digər cari aktivlərdə dəyişiklik | | 133,030 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlərdə dəyişiklik | | (845,775) |
| Təxirə salınmış gəlirdə dəyişiklik | | 10,719,514 |
| Alınmış avanslarda dəyişiklik | | 760,785 |
| Digər öhdəliklərdə dəyişiklik | | (54,243) |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **10,373,475** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | |
| Əmlak, tikili və avadanlıqların satın alınması | | (749,831) |
| Qeyri-maddi aktivlərin satın alınması | | (91,312) |
| Vençur kapital vəsaitlərinə investisiya | 16 | (1,500,000) |
| Kreditin ödənilməsi üzrə daxilolmalar | | 466,666 |
| Əldə edilmiş faiz | | 2,883 |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(1,871,594)** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA İLKİN HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)**
*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM | | 8,501,881 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 9 | **32,091,664** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 9 | **40,593,545** |

***Nağdsız əməliyyatlar***

31 dekabr 2023-cü il tarixində başa çatmış il ərzində pul vəsaitlərinin hərəkəti haqqında ilkin hesabatdan çıxarılan, pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsini tələb etməyən əməliyyat və investisiya fəaliyyətlərinə 481,828 AZN məbləğində digər ehtiyatların artırılması vasitəsilə ümumi nəzarət altında olan şirkətlərdən avadanlıqların xalis köçürülməsi və 5,813,947 AZN məbləğində strateji xidmətlərin göstərilməsi üçün ümumi nəzarət altında olan müəssisələr tərəfindən maliyyələşdirilən hökumət subsidiyaları daxildir.

**Rəhbərlik adından:**

**İnarə Vəliyeva**
**İdarə Heyətinin sədri**

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Vüsal İbrahimov**
**Baş mühasib**

19 iyun 2024-cü il
Bakı, Azərbaycan Respublikası

10-43-cü səhifələrdəki qeydlər hazırkı ilkin maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.